Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Rusiyanın raket zərbəsindən Ukrayna kəndində bütöv bir ailə həlak olub

İyul 30, 2026




Lvova zərbələr

İyulun 30-da Rusiyanın ballistik raketi Ukraynanın Dnepropetrovsk vilayətinin Radiuşne kəndində yaşayış evini vurub. Nəticədə, demək olar ki, bütöv bir ailə həlak olub. Ukrayna rəsmiləri raket və dron hücumlarından ölkə üzrə azı doqquz nəfərin öldüyünü, onlarla insanın yaralandığını bildirirlər.

Hücumdan bir neçə saat əvvəl prezident **Volodimir Zelenski** Rusiyanın yeni zərbələri barədə xəbərdarlıq etmişdi. O, Qərb müttəfiqlərinə Ukraynanın "Patriot" sistemlərinə ehtiyacı olduğunu xatırlatmışdı.

Radiuşne Zelenskinin doğulduğu Krivoy Roq şəhəri yaxınlığında yerləşir. Yerli müdafiə şurasının rəhbəri Oleksandr Vilkul bildirib ki, Rusiyanın zərbəsindən bir ailənin azı altı

üzvü həlak olub.

Ukraynanın Fövqəladə Hallar Xidməti isə ailənin daha dörd üzvünün həlak olduğunun ehtimal edildiyini, 10 nəfərin isə yaralandığını açıqlayıb.

Kənd sakini **Mikola** AzadlıqRadiosuna deyib ki, sözügedən ailənin 10 övladı olub. Onlardan səkkizi iyulun 30-da Rusiya qüvvələrinin vurduğu evdə yaşayırdı.

**"Çox yaxşı ailə idi"**, – o, qonşuları haqqında belə deyib.

Zelenski hücumdan sonra bildirib ki, Radiuşneyə endirilən zərbə ilə bağlı ilkin araşdırmalar raketin Şimali Koreya istehsalı olduğunu göstərir. Prezident bunu Moskva ilə Pxenyan arasında hərbi əməkdaşlığın nəticəsi kimi qiymətləndirib.

Zelenski ötən həftə deyirdi ki, Rusiya Ukraynaya qarşı müharibəyə yenidən minlərlə Şimali Koreya əsgəri cəlb etməyə hazırlaşır, bununla bağlı yayın əvvəlindən hazırlıqlar aparılır.

2024-cü ildə Ukrayna qüvvələrinin Kursk vilayətinə hücumundan sonra təxminən 12 min Şimali Koreya hərbçisi Rusiyanın həmin bölgəsində döyüşlərə cəlb edilmişdi.

Rusiyanın digər hücumları nəticəsində Kiyev, Poltava və Dnepropetrovsk vilayətinin Pavloqrad şəhərində üç nəfər həlak olub. Polşa sərhədi yaxınlığındakı Lvov şəhərində isə iki nəfərin itkin düşdüyü bildirilir.

## Rusiyanın Ukraynaya zərbələrindən 13 nəfər həlak olub

İyulun 30-da Rusiyanın Ukraynaya hava zərbələrindən azı 13 nəfər həlak olub. Qonşu Polşa hava məkanının təhlükəsizliyini təmin etmək üçün qırıcı təyyarələrini havaya qaldırıb.

Ukraynanın əksər regionlarında hava həyəcanı siqnalları verilib. "Reuters" agentliyinə danışan şahid Kiyevdə partlayış səslərinin eşidildiyini bildirib. Kiyev meri **Vitali Kliçko** "Telegram"da yazıb ki, şəhərdə yaşayış təyinatlı olmayan bir neçə obyektdə yanğın baş verib.

Kiyevdə bir nəfər ölüb, iki nəfər yaralanıb.

Dnepropetrovsk və Poltava vilayətlərində isə daha altı nəfər, o cümlədən iki uşaq həyatını itirib.

Krivoy Roq şəhərində 5 və 12 yaşlı iki qız daxil olmaqla altı nəfər ölüb, səkkiz nəfər yaralanıb. Şəhərin Müdafiə Şurasının rəhbəri **Oleksandr Vilkul** Rusiyanın Voronej vilayətindən "İskəndər-M" ballistik raketi buraxdığını bildirib.

Polşa sərhədi yaxınlığındakı Lvov şəhərində Rusiya raketləri iki yaşayış binasına ziyan vurub, xilasedicilər dağıntılar altında qalanları çıxarmağa çalışırlar. Hücum nəticəsində 26 nəfərin yaralandığı bildirilir.

Prezident Volodimir Zelenski bundan əvvəl Rusiyanın genişmiqyaslı hücuma hazırlaşdığını bildirmişdi.

Rusiya Müdafiə Nazirliyi isə açıqlayıb ki, onun qüvvələri Kiyev, Lvov və Dnepropetrovsk da daxil olmaqla Ukraynanın müxtəlif bölgələrində yerləşən hərbi obyektlərə, eləcə də üç yük gəmisinə zərbələr endirib.

Avropa İttifaqı və NATO üzvü olan Polşa X sosial şəbəkəsində hava məkanını qorumaq üçün qırıcı təyyarələrini havaya qaldırdığını bildirib.

Bu arada Rusiyanın "Wildberries" ən böyük onlayn pərakəndə satış şirkətimə hücumlar davam edir. Ölkənin qərbində yerləşən Penza şəhərində Ukraynanın dron hücumundan sonra "Wildberries" şirkətinin anbarında yanğın baş verib.

2022-ci ilin fevralında Rusiyanın genişmiqyaslı işğalı başlayandan Moskva və Kiyev mülki əhalini qəsdən hədəfə aldıqlarını inkar edirlər.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur